# Yurdum, yuvamsan mənim...

## *(peyzaj)*

İBRAHİMXƏLİL

Məni yerlipərəstlikdə ittiham edənlər var. Bunlar da əsasən Abdulla Şaiq haqqında silsilə yazılarımdan xəbəri olanlar sırasındadır. Incimirəm. Çünki Abdulla Şaiqin tərcümeyi-halındakı ikicə cümlə doğrudan-doğruya məni sanki əyyami-qədimlərdən tutub. İlk baxışda burada nə var ki: "Talıbzadə Abdulla Şaiq Molla Mustafa oğlu Tifisdə ruhani ailəsində doğulmuşdur. Atası Borçalıdandır".

...Sinif yoldaşım Elman Səmədoğlu ilə bərabər, yaşıdlarımızdan fərqimiz bu oldu ki, biz Abdulla Şaiqin uşaq şeirlərindən öncə "Araz" romanını oxuduq. Roman bu cümlə ilə başlayır:

"Əncir ağacı altında çalınan sazın ahəngdar səsi ətrafı bürümüşdü".

Və elə ilk abzasdaca iki nərmənazik bayatı var idi, zənnimcə, elə o vaxtdan əzbərlədiyimdir ki, bu günün özündə də hərdən içimdə öz-özünə çalınır:

Kababı köz öldürər,
Sürməni göz öldürər,
İgidi qılınc kəsməz,
Tənəli söz öldürər.

Uşaq ədəbiyyatımızda tutduğu yer haqqında "Abdulla Şaiq üçün Borçalı rekviyemi"ndə yazmağa cəhd göstərmişəm. Bu yazıda sevimli yazıçımızla bağlı ruhumu saran bir peyzaj havasıdır.

Çünki düz iyirmi iki ildir ki, onun "Köç" hekayəsini orta məktəbdə tədris edirəm. Düz iyirmi iki ildir ki, "Köç"dən sanki ilk dəfədir kimi söz açıram. Bütün bunlar maraqlı əhvalatlardan çox, maraqlı mənzərələrdir.

"...yavaş-yavaş nəfəs alan səhərlərin, axşamların qanadları ucundan yayılan sərinlik, dağ çiçəklərinin, cökə ağaclarının, qoruqlarda, tarlalarda biçilmiş təzə otların gözəl ətri, ormanın axşamları, səhərlərə məxsus rütubət qoxusu, bulaqların şırıltısı, dərələrin, irmaqların çaqqıltısı, quşların bağırtısı, quzuların, buzovların mələşməsi, itlərin hürüşməsi bir-birinə qarışaraq obaya başqa bir rəng, başqa bir şəkil verirdi".



Bu hava Borçalı havasıdır! Yüzəyüz əminəm ki, Abdulla Şaiqin təkcə atası Borçalıdan deyildi, ruhu da, qələmi üçün verilən izin-rüsxət də Borçalıdan idi! Bu dediklərim quruca pafos, ucuz ritorika necə ola bilər? Doğulub dünyaya gəldiyimiz yerlərin zehnimiz və qəlbimizdəki əksi – o unudulmaz, kədəri və hüznü hərdən az qala ölüm dərəcəsində olan mənzərələr – son ümid qədər həmişə bizimlə olmurmu?

"Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq; çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq".

Sirr deyil ki, peyzaj vasitəsilə yazıçılar vətənə məhəbbət ifadə edirlər.

Tədqiqatçıların haqlı iddialarına görə, Abdulla Şaiqin 1912-ci ildə nəşr etdirdiyi "Gülzar" dərs kitabı inqilabdan əvvəl və sonrakı dərsliklərin ən yaxşılarından imiş. Və burası da tam təbiidir ki, bu boyda ədib və müəllim belə peyzajlarla, bədii lövhələrlə həm zəngin bilik verir, həm də yurdsevərliyə yardımcı olurdu.

Abdulla Şaiqin qələmə aldıqları adi mövsümi köçərilik deyildi. Bu daha çox təbiətlə qaynayıb-qarışmaq, qovuşmaq havası idi.

"Araz" romanını erkən mütaliəmə baxma-yaraq, "Şaiq" sözünün mənasını gec öyrəndim. Bu, indi asan olub!

"Şaiq" yaxşı işə şövqü, həvəsi, istəyi olan deməkdir.

Deməyə borcluyam ki, bizim məktəb və tələbəlik illərimizdə Abdulla Şaiqdən bir romantik kimi danışanda az qala utana-utana, sıxıla-sıxıla danışırdılar. İndi, aradan bu qədər illər keçəndən sonra Abdulla Şaiq romantizmi ilə fəxr edir və qürur duyuruq:

Hamımız bir Günəşin zərrəsiyik!
Hamımız bir yuva pərvərdəsiyik!

Məgər bu möhtəşəm misralar zirvə, fəxriyyə yerimiz deyilmi? Məgər... hətta böyük dünya ədəbiyyatı səviyyəsində belə, belə şah misralar, şah beytlər o qədərmi çoxdur?

...İndi də mənim "köç yerim"ə dönək.

Mən atam haqqında "Daş çoban" adlı kiçik poema yazmışam. Atam çoban idi, özü də pis çoban deyildi. İndinin özündə də kəndimizdə on-on beş can heyvanını belə, tanıyıb sürüdən ayırmaqda çətinlik çəkənləri hərdən atamla utandırırlar.

Atam həm də gözəl tütək çalırdı və hələ Başkeçidi, Əyriqarı, Şamdüyəni görməmiş, o dağların, yurd yerinin mənzərələri ilk öncə məxsusi bizim üçün çalınan tütək səsində canlanmışdı.

Çox ola bilər ki, mən Abdulla Şaiqi çobanları məhəbbətlə tərənnüm etdiyinə görə də sevmişdim. Çoxu da məhz bundandır yəqin!

...Sevimli xalq şairimiz Məmməd Araz çobanı qoca dağların "şairi və şeiri" adlandırır. Həm möhtəşəm, həm də sərrastdır, deyilmi?

Fikrim heç də mübahisəli müqayisə aparmaq deyil. Sadəcə, daha çox çoban atamla, çoban əmilərimlə və dünyanın Dəllər adlı kəndindən çıxmış bütün çoban həmyerlilərimlə bağlı olduğu üçün, Abdulla Şaiqin çobanlar haqqında yazdığı "Dağlar sultanı" adlı şeirlə də tanışlığım var idi.

Ədəbiyyat müəllimim və ustadım Təhməz Alı oğlu Abbasovun mənə dediklərindən belə çıxırdı ki, bu şeir onların vaxtında az qala dillər əzbəri imiş:

Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar...

...Mənə elə bir Başkeçid, ya Qaraçöp balası göstərin ki, qəlbində sevdiyi dağların mənzərəsini gəzdirməsin? İstər Maqadanda yaşasın, istər Səmərqənddə, istərsə də Saxarada. O doğma mənzərələr, doğma peyzajlar son nəfəsədək onunla deyilmi? Yar yarının əksini pünhan gəzdirən kimi...

Abdulla Şaiqin "Yurdum, yuvamsan mənim" misrasına neçə ithaf, neçə beynəqoşulma, neçə ruhnamə yazılıb? Təkcə böyük Səməd Vurğunun:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən. –

parçasını xatırlamaq kifayətdir. Bədii lövhənin, mənzərə-peyzajın insan bioritmində, əxlaqında nə kimi əhəmiyyət daşıdığı artıq elə böyük sirr deyil. Abdulla Şaiqin doğumundan 130 il keçir, indi onun 130 yaşı var, 200 il keçəndə də o bədii lövhələr, zərif, şehli peyzajlar sənətsevərlərlə olacaqdır.

***P.S.* Böyük romantikin vaxtilə təbiət mənzərələrinə, coğraf ya dili ilə desək, coğraf örtüyə aid etdiyi "Yurdum, yuvamsan mənim" bədii ifadəsini yüzəyüz, bu təbiətin sahibi olan insana da aid etmək olar. Çünki vətən təkcə dağdan, arandan, çaydan, dənizdən, daşdan, torpaqdan ibarət deyil. Vətən həm də insandır.**

***Və heç təsadüf deyil ki, vaqif yazarlarımızın "Gəl, ey vətənim insan!" müraciətləri də az deyil.***

***Gəl, ey vətənim insan! Gəl, düz yüz otuz il bundan öncə "şəhri-Tifis"də dünyaya göz açan o Böyük Müəllimin xatirə günündə ötüb keçənləri Sözün işığında bir də vərəqləyək. Qoy bir kimsə də özünü yad saymasın.***

***Zira, doğrudan-doğruya, hamımız bir Günəşin zərrəsiyik!..***